# Cüdoçumuz Rüstəm Orucov gümüş medal aldı

## Beləliklə, Rio Olimpiadasında ilk medal qazanıldı



Ölkəmizdə idmanla, Olimpiya hərəkatı ilə bağlı məqsədyönlü siyasət aparılır. Məhz bu siyasət nəticəsində idmançılarımız beynəlxalq yarışlarda böyük uğurlar əldə edir. Düşünülmüş siyasət, böyük diqqət və qayğı ölkəmizi idman dövlətinə çevirmiş, mötəbər turnirlərdə müntəzəm olaraq medalların qazanılması artıq ənənə halını almışdır. Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Braziliyanın Rio-de-Janeyro şəhərində XXXI Yay Olimpiya Oyunları və Paralimpiya Oyunlarında iştirak edəcək Azərbaycan nümayəndə heyətinin yola salma mərasimində demişdir: "Bu gün biz idmançıları yola salırıq, onlara uğurlar arzulayırıq. Əminəm ki, həm olimpiyaçılar, həm paralimpiyaçılar vətənpərvərlik, peşəkarlıq, əzmkarlıq göstərərək ölkəmizi ləyaqətlə təmsil edəcəklər və vətənə böyük qələbə ilə qayıdacaqlar". Və budur, Cənubi Amerikadan - XXXI Yay Olimpiya Oyunlarından ilk uğur müjdəsi aldıq - olimpiadada ölkəmiz ilk medalını qazandı. 73 kiloqram çəki dərəcəsində çıxış edən cüdoçu Rüstəm Orucov yalnız final görüşündə ikiqat dünya çempionu, yaponiyalı Şoşei Onoya uduzaraq gümüş mükafatın sahibi oldu.

1/16 mərhələdə mübarizəyə qoşulan Rüstəm qazaxıstanlı Didar Həmzəni məğlub etmiş, 1/8 finalda isə avstraliyalı Jake Bensted üzərində ippon fəndi ilə qələbə qazanmışdır. Növbəti mərhələdə London Olimpiadasının gümüş mükafatçısı, macarıstanlı Mikloş Unquvari cüdoçumuzun təzyiqinə tab gətirməmişdir. Yarımfinalda isə idmançımız İsraili təmsil edən Sagi Muki üzərində qələbə əldə etmişdir. Beləliklə, Rüstəm Orucov XXXI Yay Olimpiya Oyunlarında Azərbaycan yığma komandasının ilk medalını qazanmışdır.

Qeyd edək ki, bu, olimpiya oyunlarında Azərbaycan cüdosu tarixində dördüncü mükafatdır. Bundan əvvəlki olimpiadalarda Nazim Hüseynov, Elnur Məmmədli və Mövlud Mirəliyev fərqlənmişdilər.

Yarış başa çatdıqdan sonra Rüstəm jurnalistlərə müsahibəsində Azərbaycanın üçrəngli bayrağının Braziliyada dalğalanmasından qürur duyduğunu bildirmişdir: "Görüşlərimin hamısı çətin oldu. Finalda da qələbə əzmində idim. Amma rəqibim çox güclü idi. Qarşıda yenə olimpiada var. Gümüşü qızıla çevirmək üçün var gücümlə çalışacağam. Doğma Azərbaycanda hər kəsə, evdəkilərə, anama buradan salam deyirəm. Azərbaycanın üçrəngli bayrağının



Braziliyada dalğalanması həqiqətən qürurverici idi. Rioda ölkəmizə ilk medalı qazandırdığıma görə sevinirəm. Hələ burada medallarımız çox olacaq".

*Ardı 6-cı səh.*



# Cüdoçumuz Rüstəm Orucov gümüş medal aldı

## Beləliklə, Rio Olimpiadasında ilk medal qazanıldı

***Əvvəli 1-ci səh.***

İdmançımızın uğuruna Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti Sadıq Sadıqov da münasibət bildirmişdir: "Sevindirici haldır ki, Azərbaycan cüdo məktəbi Rioda öz sözünü dedi. Sözsüz ki, qazanılan bu uğurlar dövlətimizin idmançılara göstərdiyi diqqətin qarşılığıdır. Prezident İlham Əliyevin istər dövlət başçısı kimi, istərsə də Milli Olimpiya Komitəsinin rəhbəri kimi gördüyü işlər Azərbaycanı idman ölkəsinə çevirib. Olimpiadada qazanılmış bu qələbə həm də Azərbaycanın dünyada tanınmasına xidmət edir. Çünki mötəbər beynəlxalq yarışda əldə edilən hər bir uğur bilavasitə konkret ölkənin reklamı deməkdir. Eləcə də idman beynəlxalq aləmdə nüfuz qazanmaq vasitəsidir. Rüstəmin bu uğuru da Azərbaycanın idman ölkəsi kimi imicinin beynəlxalq aləmdə möhkəmlənməsinə xidmət edir. Bir ildən çoxdur ki, cüdoçularımız müxtəlif ölkələrdə təlim-məşq prosesi keçib, bir sıra nüfuzlu yarışlarda qüvvələrini sınayıblar. Bu gün qazanılan müvəffəqiyyət gərgin iş prosesinin nəticəsidir. İnşallah, Rüstəm Orucovun qazandığı medal digər idmançılarımız üçün düşərli olar".

Olimpiadada Azərbaycan üçün ilk medalı qazanmış idmançı kimi tarixə düşən Rüstəm Fəzail oğlu Orucov 1991-ci il oktyabrın 4-də Rusiyanın İrkutsk şəhərində anadan olmuşdur. Yeddi yaşından şahmatla, səkkiz yaşından "Sambo-2000" klubunda cüdo ilə məşğul olmağa başlamışdır. İlk dəfə Buryatiyanın paytaxtı Ulan-Udedə yarışmış və 38 kiloqram çəki dərəcəsində üçüncü yeri tutmuşdur. Həddi-büluğa çatdıqdan sonra ailəsi ilə birlikdə Bakıya köçən Rüstəm "Atilla" klubunda məşqlərini davam etdirmişdir. Yeniyetmələrin Avrasiya çempionatında qızıl medal qazanmışdır.



2011-ci ildə Sloveniyada keçirilən Avropa kubokunda və Bakıda təşkil olunmuş dünya kubokunda müvafiq olaraq gümüş və bürünc medallara layiq görülmüşdür. Növbəti il Bakı Qran-prisində qalib adını qazanan Rüstəm hərbi xidmətini başa vurduqdan sonra 2013-cü ildə Azərbaycan paytaxtında keçirilən "Böyük dəbilqə" yarışının qızıl medalına sahib çıxmışdır. 2014-cü il o, Türkiyənin Samsun şəhərində keçirilmiş Qran-pri yarışında finaladək yüksəlmiş və gümüş medala sahib çıxmışdır. Ötən il Tbilisi Qran-prisində də qalib olmuş, Mərakeşin Rabat şəhərində "World Masters" yarışlarında "bürünc", Paris Qran-prisində "gümüş" əldə etmişdir. Bu il isə Tatarıstanın paytaxtı Kazanda Avropa çempionatının qızıl medalına yiyələnmişdir. Klublararası qitə çempionatında da çıxış edən Rüstəm Portuqaliyanın "Sportinq" klubunun heyətində bürünc medala layiq görülmüşdür.

Bakıda keçirilən I Avropa Oyunlarında mükafatçılar sırasında yer almaması cüdoçuya bir dərs olmuşdur. "Bu yarış mənim üçün həqiqətən yaxşı dərs oldu. Mən öz rəqibimi lazımınca qiymətləndirmədim. Həmin gün başa düşdüm ki, özündənrazılıq yaxşı şey deyil", - deyə Rüstəm yarışlardan sonra bildirmişdir. Bundan sonra idmançı daha əzmlə və peşəkarlıqla məşqlərini davam etdirmişdir.

Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında təhsil almış 25 yaşlı Rüstəm Orucov asudə vaxtlarını ailəsi və dostları ilə keçirməyə üstünlük verir. İndiyədək qazandığı uğurlara görə valideynlərinə və məşqçilərinə minnətdardır: "Yaxşı ki, səkkiz yaşımda nənəm məni cüdo bölməsinə apardı. Cüdoda uğurlar əldə etdim. Atam məni daim dəstəkləmiş, məşqçilərim Fərhad Məmmədov və Əli Dərvişov bu idman növündə mənə düzgün yol göstərmişlər. Millimizin baş məşqçisi Peter Zayzenbahərə də minnətdarlığımı bildirirəm".

Azərbaycanlı olimpiyaçıların yolasalma mərasimində dövlət başçısı İlham Əliyev bildirmişdir ki, "ancaq güclü dövlətlərdə güclü idman olur və Azərbaycan idmanının inkişafı ümumi inkişafımızın təzahürüdür. Bütün idman yarışları bir sınaqdır. Ən əsası, bu sınaqdan üzüağ çıxmaqdır. Çünki bütün xalqımız idmançılarımızdan qələbə gözləyir". Gənc cüdoçumuz Rüstəm Orucov Olimpiya yarışları sınağından üzüağ çıxdı və ölkəmizə ilk medalı qazandırdı. İndi növbə digər idmançılarımızındır. Əminik ki, olimpiyaçılarımızın zəfər estafeti davam edəcək.

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***